NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 1-(24)2023



**Bakı – "Elm və təhsil" – 2023**

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 19 may 2023-cü il tarixli (protokol № 2)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (24)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2023, 120 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
# *Elmi araşdırmalar jurnalı*

*№1.2023(24)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Köç ədəbiyyatının Azərbaycan fenomeni: Vətəndən Vətənə mühacirətin bədii və elmi irsi
doi.org/10.30546/2702-0034.1.24.2023.7

*BAXŞIYEVA Ülkər.*
Nizaminin "Leyli və Məcnun" məsnəvisi və "hami-ovçu" arxetipindən istifadə məsələləri
doi.org/10.30546/2702-0034.1.24.2023.21

*DƏMİROVA Cəmilə.*
İbn əl-Qatta və onun "Əd-durra əl-xatira" antologiyası
doi.org/10.30546/2702-0034.1.24.2023.28

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*DADAŞOVA İlahə.*
Şahin Fazilin "Divan"lar silsiləsində "Beşinci divan" strukturu, tematikası və ideya istiqamətləri39
doi.org/10.30546/2702-0034.1.24.2023.39

*MƏMMƏDLİ Şərqiyyə.*
XX əsrin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri: forma və janr kontekstində
doi.org/10.30546/2702-0034.1.24.2023.50

*MƏHƏRRƏMZADƏ Tamilla.*
Məmmədağa Sultanovun şeir yaradıcılığı (XX əsrin 30-cu illərinin dövri mətbuat materialları əsasında)
doi.org/10.30546/2702-0034.1.24.2023.60

*MUSTAFAYEVA Göyərçin.*
Çağdaş uyğur ədəbiyyatının şəhid şairi Lütfulla Mütəllip yaradıcılığında milli mücadilə
doi.org/10.30546/2702-0034.1.24.2023.69

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABDULXALİKOV Firdavs.*
Миниатюры Камал Ад-Дина Бехзада на «Хамсе» Низами Гянджеви –
бесценные шедевры восточного изобразительного искусства
doi.org/10.30546/2702-0034.1.24.2023.83

*QƏDİROVA Afət.*
Həyatının mənasını xalqa xidmətdə görən dahi
doi.org/10.30546/2702-0034.1.24.2023.94

*BABANLI Tomiris.*
Kitablara bağlı ömür
doi.org/10.30546/2702-0034.1.24.2023.102

**https://doi.org/10.30546/2702-0034.1.24.2023.39**

**İlahə DADAŞOVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**dadashova.ilaha@mail.ru**
**ORCID ID: 0000-0003-4969-769X**

# ŞAHİN FAZİLİN "DİVANLAR" SİLSİLƏSİNDƏ "BEŞİNCİ DİVAN": STRUKTURU, TEMATİKASI VƏ İDEYA İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** divan yaradıcılığı, Şahin Fazil, Beşinci Divan, divanın tematikası, ideya istiqamətləri

**Keywords:** divan creativity, Shahin Fazil, The Fifth Divan, the theme of the divan, directions of ideas

**Ключевые слова:** диванное творчество, Шахин Фазиль, Пятый Диван, тема дивана, направления идей

**Giriş.** Məhsuldar yaradıcılığı ilə elm və ədəbiyyat sahəsinə böyük töhfələr bəxş edən, ənənələrə sadiqliyi ilə bərabər, novatorluğu ilə seçilən tarix elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Məcməüş-şüəra" ("Şairlər məclisi") adlı tarixi ədəbi məclisin sədri Şahin Fazilin yaradıcılığında "Divan"lar silsiləsi xüsusi yer tutur. Onun "Divan"lar silsiləsi bir çox özəllikləri ilə diqqət çəkir. "Divanlar pentalogiyası" adlandırdığı irihəcmli beş divan sayı, həcmi, strukturu, tematikası, vəzni və janr müxtəlifliyi baxımından ədəbiyyatımızda bir yenilikdir. "Divan"lar şairin Tanrıya, vətənə, dilə, insana, sənətə böyük sevgisinin təzahürüdür. Burada şairin yüksək vətəndaşlıq və dövlətçilik mövqeyi, millətsevərlik, yurdsevərlik hissi yalnız təqdim edilmir, eyni zamanda həssaslıqla təbliğ edilir. Tanrıya ehtiramı, təşəkkürü, həqiqətə sədaqəti, düzlüyə çağırışı ilə bərabər, məhz bunlar şairin əsas qayəsidir desək, yanılmarıq. "Divan"lar tematikası ilə zəngindir və tədqiqat üçün əhəmiyyətlidir.

**Şeir insan duyğularının təzahürü kimi.** Şeir ürəyin həyəcanı, fərəhi, daha çox kədəri, qəlbdən gözə, gözdən üzə, üzdən vərəqə süzülən nəticəsi, şair qəlbinin səsinin ən gözəl tərcümanıdır. Şeirdəki fikri pozitiv şəkildə təqdim edə bilmək də xüsusi istedad tələb edir ki, məqalədə bu istedadı ilə də seçilən sənətkarın yeni kitabına diqqət yönəldəcəyik. Alman filosofu İmmanuil Kant deyib: "Şeir insan duyğularının zahirə təzahürünü təmin edən bir yoldur" [1, s.413]. Bəli, elə bir yol ki, onun sayəsində qəlbin tərcümanına çevrilən şair həyatı mövzuya, mövzunu sənətə gətirir, ədəbiyyatı daha da zənginləşdirib gözəlləşdirir, istedadı və səmimiyyəti ilə qəlblərin sevimlisinə çevrilir.

**Şahin Fazilin "Divan"lar silsiləsində "Beşinci divan"ı.** Məqalədə tarix elmi və poeziyamıza töhfələr bəxş edən "Divan"lardan "Xəmsə" yaratmaqla da novatorluq edib ilkə imza atan Şahin Fazilin 2022-ci ildə nəşr olunan "Divan"lar silsiləsini "Divanlar xəmsəsi"nə − pentalogiyaya çevirən "Beşinci Divan"ını tədqiqata cəlb etmişik. İlk növbədə qeyd edək ki, "Beşinci Divan" 1996, 2005, 2008, 2014-cü illərdə nəşr edilmiş irihəcmli dörd divandan bir sıra xüsusiyyətləri ilə fərqlənir ki, bunlardan biri də onun bir deyil, "I Kitab" və "II Kitab" adlı iki böyük hissədən ibarət olmasıdır. Hər biri "Dibaçə" ilə başlayıb "Xatimə" ilə bitən I, II, IV


CC BY NC ND

Divandan, "Xatimə"dən sonra iki poemanın əlavə edildiyi "Üçüncü Divan"dan fərqli olaraq, "Beşinci Divan" digərləri kimi "Dibaçə" ilə başlansa da, "Xatimə"dən sonra f.e.d., professor İsmayıl Məmmədlinin yazdığı "Sözardı" ilə yekunlaşır. İsmayıl müəllim bu barədə yazır: "Ərəb sözü olan "Xatimə" azərbaycanca "Son söz" deməkdir. "Son söz"dən sonra nə söz? Amma mən "Son söz"dən sonra "Sözardı" yazmağı qərara aldım. Məni buna divanşünas dostum Şahin Fazilin bu günlərdə çap olunacaq "Beşinci Divan" adlı kitabının cazibəsi cəlb etdi" [5, s.1502].

"Beşinci Divan", həqiqətən, böyük cazibəyə malikdir və bir çox sualların cavabıdır. Ümumiyyətlə, Şahin Fazil "Divan"larında bu sahədəki yaradıcılığı, zəhməti və diqqət etdiyi mənbələrdən də bəhs etmiş, "Üçüncü Divan"ın "Dibaçə"sindən öncə verdiyi dörd beytdən üçüncüsündə "Divan"ı necə yazdığını da bildirmişdir:

Yazmamışam "Divan"ı birdən-birə,
Bir neçə "Divan" oxuyub-yazmışam [3, s.9].

Beləliklə, məlum olur ki, bu divanların nüvəsində zəngin mütaliə dayanır. Şair "Dördüncü Divan"ın "Xatimə"sində isə artıq "Beşinci Divan"ın yazılmaqda olduğunu diqqətə çatdırır: "Dördüncü Divan"ıma indi nöqtə qoyuramsa da, nöqtəni vergül etməyə nə var ki? Axı "Beşinci Divan" var qarşıda. Allah qoysa, mən divanlarımın "Xəmsə"sini yaratmalıyam, inşallah" [4, s.837]. Azərbaycanda və dünyada divanlar "Xəmsə"si yaradılmadığını bildirən şair bu sahədə də ilkə imza atıb. Artıq 2022-ci ildə işıq üzü görmüş "Beşinci Divan"da ("I Kitab") "Dibaçə", 6 məsnəvi, 5 qəzəldən ibarət "Birinci minacat", "Qəsidə" ilə verilən "İkinci minacat", 4 məsnəvi, 3 qəzəlin verildiyi "Birinci nət" və "İkinci nət", "Qəsidələr", "Qəsidə-təzminlər", "Qəzəllər", "Qəzəl-təzminlər", "Müxtəlif vəznli şeirlər" təqdim edilmiş, "II Kitab" "Müxtəlif vəznli şeirlər"lə davam etdirilmiş, sonra "Qitələr", "Mürəbbe", illər öncə yazdığı və yeni əlavələr etdiyi "Sevgi və iztirab" adlı epik poemadan şeirlər, "Təbriknamələr", "Təəssüfnamələr", "Şikayətnamə", "Tərkibənd", "Haykular", "Vakalar", "Təkbeytlər", "Dördlüklər", "Səkkizliklər", "Bayatılar", "Xoryatılar", "Qoşmalar", "Rübailər", "Virusnamələr", "İki qəzəl", "İki şeir", "Üç şeir", "Xəlil Rzadan təzmin", "Əli Ələmiyə iki qəzəl-təzmin", "Təzə virusnamə silsiləsindən şeirlər" başlıqlı şeirləri verilmişdir. Ardınca ömrünün bir qismi səfərlərdə keçən şairin çoxsaylı səfərnamələri silsiləsinə daxil olan şeirlər diqqətə çatdırılmış, sonra "Xatimə", ardınca "Sözardı" verilmişdir. Sadalananlar və toxunacağımız digər nüanslar "Divan"ın mövzu, janr baxımından zənginliyinin təsdiqidir. İlk olaraq "Dibaçə"dən öncə verilən fikrə diqqət yetirək:

Şahinəm, vaxtımı mən boş yerə öldürməmişəm,
Vaxtı öldürməyə bir zərrə də vaxtım yoxdur... [5, s.3]

"Beşinci Divan"ın şairin məhz bu fikri ilə başlaması və bu fikrin divanın ikinci hissəsinin sonunda kitabın cild qabığında bir daha verilməsi təsadüfi deyil. Həmin fikir bir hissəsini tədqiqata cəlb etdiyimiz zəngin yaradıcılığın, irihəcmli divanların necə yarandığı sualının cavabıdır. Bu tematika, ideya baxımından zəngin olan irihəcmli sənət nümunəsinin yaranma səbəbi böyük istedad sahibinin zamanı dəyərləndirməsiylə bilavasitə bağlıdır. Şahin Fazilin bu fikri eyni zamanda zamanın nə qədər dəyərli olduğunu diqqətə çatdırmağa da xidmət edir.

"Dibaçə" şairin Tanrıya təşəkkürü, yaradıcılığının təqdimi üçün ondan möhlət istəməsi, müraciət etdiyi çoxsaylı mövzulardan əsas mövzulara – eşq adlandırdığı Allaha, sonsuz məhəbbət bəslədiyi vətənə, dil, ana, sevdiklərinə, şeirə-sənətə, divan anlayışına, divanlarına münasibətinin lakonik şəkildə məcmusudur. İxtisasca şərqşünas olan Şahin Fazil divan yazan çağdaşlarının divan yazmağın məsuliyyətini dərk etməsini vacib hesab edir: "Mən divan qayda-qanunlarna əməl edərək, öz divan yolumu yaratmışam. Mənim divanlarım, professor Tərlan Quliyev demişkən, "müasir divanlar"dır. Qoy divan yazmaq həvəsinə düşən hər kəs "divancıq" deyil, divan yaratsın, öz yolu olsun və təqlidçilikdən uzaqlaşsın" [5, s.3].

Şahin Fazil əsrlər boyu bütün şair və yazıçıları düşündürən eşq haqqında fikrini bildirərkən onu qəzəlxanların işlətdiyi "məhəbbət" və "sevgi" istilahları ilə eyniləşdirməyi düzgün hesab etmir, eşqi bir zaman dünyəvi hesab edib barəsində xeyli "tərifnamələr" yazmaqda yanıldığını bildirir: "Yanılmışam, İlahi. Eşq Sənsən və şairlərin eşqi Sənə doğru istiqamətlənən eşq olmalıdır zənnindəyəm. Sənə olan eşqim mənim yüzlərlə misra və beytlərimdə öz əksini tapmışdır" [5, s.7].

"Dibaçə" şairin təzadlar dolu dünyada cavab tapmadığı çoxsaylı sualların təqdimi və "Beşinci Divan"ın çapını görmək üçün Rəbbindən ömür möhləti istəməsi ilə yekunlaşır. Artıq şair bu divanın da çap olunduğunu görmüş və dəyərli sənət nümunəsi tədqiqat obyektimizə çevrilmişdir. Minacatlar şairin Rəbbinə təşəkkürü, Ona verdiyi sonsuz dəyər, nətlər parlaq nura bənzətdiyi Məhəmməd peyğəmbərə sevgisinin ifadəsidir. 19 qəsidənin verildiyi "Qəsidələr" bölməsində vətən, dil saflığı, şeir, sənət, görkəmli şairlər, Qarabağ, xüsusən Lələtəpə adlı strateji mövqeyin azad edilməsi ilə bərabər, yeni zəfərlər qazanacağımız kimi məsələlər əksini tapır, şairi zəfərə doğru atılan uğurlu addım və beş "Divan" fərəhləndirir. "Qəsidə-təzminlər" bölümündə 4 şeir verilmiş, onlardan 3-ü Abbasqulu ağa Bakıxanov, 1-i İmadəddin Nəsiminin beytini öz şeirinə daxil etməklə yazılmışdır. Məhəbbət mövzusunun əsas olduğu və daha çox ictimai məzmun daşıdığı "Qəzəllər" yalnız gözələ deyil, vətənə, dilə, anaya, qadına, övlada, bəşərə, şeirə-sənətə sevginin təcəssümüdür. Qeyd edək ki, digər divanlarında da bu mövzular diqqət çəkir. "II Divan"ın "Dibaçə"sində hər üç vəzndə şeir yazan şair Azərbaycan ədəbi dilinin imkanlarının hər üç vəznli poeziyamızı zənginləşdirməyə qadir olduğunu bildirir. Diqqəti dilimizin qorunmasının mümkünlüyünə yönəldir və çıxış yolunu göstərir: "Əmin oldum ki, şeir gülzarımızı əcnəbi söz və izafətlərdən təmizləmək imkan daxilində olan bir məsələdir, bir şərtlə ki, zəhmətsevər olasan və ana dilimizi ürəkdən sevən vətəndaşa çevriləsən" [2, s.8].

Biz bu zəhmətsevərliyi və ana dilimizi ürəkdən sevən vətəndaşın əməyinin uğurlu nəticələrini Şahin Fazil yaradıcılığında görürük. "Beşinci Divan"da dilin saflığı, Qarabağın azadlığı, Qubanın tərənnümü, Almaniya, İstanbul gözəlliklərindən, digər mövzulardan da bəhs edilmiş, vətən anlayışı, vətənə sevgi əsas götürülmüşdür:

Kimsəni sevməmişəm doğma vətəndən əvvəl,
Yarı da sevmişəm, əlbəttə, vətəndən sonra [5, s.104].

Qarabağ itkisinin ağrısından "Qəzəbli qəzəl" yazan şair mətlə beytdə "Sevgiliyə qurban ola canımız" [5, s.212] deyərkən sevgilinin Azərbaycan olduğunu vurğulayır, məqtə beytdə də eyni fikirdə olduğunu bildirir:

Sevgilimiz yar deyil, Şahina,
Sevgilimiz Azəribaycanımız!!! [5, s.214]

Xəlqi qəzəl yazan, sadə qəzəldə əməyi olan, beş iri divanı ilə qürurlanan şair Qarabağ itkisinə görə özündən gileylənir:

Verdim əlimdən Qarabağ yurdumu,
Bəli, özümdən gileyim var mənim [5, s.216].

Lakin o da qələmi ilə mübarizə aparır, xalqın mübarizə əzmini gücləndirir. Qarabağın işğaldan azad ediləcəyinə, zəfər qazanacağımıza inamı artırır. Nəhayət, Qarabağın işğaldan azad olunması ilə bu mövzuda yazılan şeirlərdə kədər və qəzəb hissini sevinc, qürur və fərəh əvəz edir:

Cəbrayıl gəldi, Füzuli gəlmədə, çox kənd xilas,
Növbədə Xankəndi var, bəndələr tacı Sərsəng gəlir... [5, s.234]

Qarabağın azad, dağılan yerlərinin abad olacağına, qüssə-kədərdən uzaq olacağına inanır, xalqı da inandırır və nəhayət, Şuşanın azad olunması ilə 8 noyabr 2020-ci ildə "Zəfər qəzəli" yazmaq şairə nəsib olur. Onu da vurğulayaq ki, "Xan Arazım axmada, gözlərimiz baxmada" [5, s.332] deyən şair Azərbaycanın birləşəcəyinə də inanır.

"Qəzəl-təzminlər" Sədi Şirazi, Əsgər Şahi Ərdəbili, Bayram xan Baharlı, Saib Təbrizi, Lənkəranda "Fövcül-füsəha" ədəbi məclisinin yaradıcısı (1860) və sədri Mirzə İsmayıl Qasir, Asim Ərdəbili, Səkinə Sadiqi, Heydər Oğuz beytinə yazılmış, "İmam Xameyni qəzəllərinə təzminlər", "Yasin Xəlil şeirlərinə təzminlər", "Mir Həmzə Seyid Nigarinin (XIX əsr) şeirlərinə təzminlər", "İran şairi Rəhim Əsədullahi Dərvişin qəzəllərinə təzminlər", "Abbasqulu ağa Bakıxanovun şeirlərinə təzminlər" adı altında bir neçə qəzəl-təzmin verilmişdir ki, bu nümunələrin hər biri şairin şeirə, sənətə, sənətkarlara, elmə, həyat hadisələrinə münasibətinin əksidir.

Artıq heca və sərbəst vəznli şeirlərin verildiyi "Müxtəlif vəznli şeirlər"in "Ömrüm mənim" adlı şeirlə başlaması, "Mən" silsiləsindən "Mən" adlı şeir təqdimi və digər bu sıradan olan şeirlər müəllifin həyat və sənət yolunu, mövqe və məramını, böyük zəhmətini əks etdirir:

Qələm siqlətimi çox yana yayıb,
Ən böyük zəhmətkeş bəlkə də mənəm.
Heç şair bu qədər "Divan" yazmayıb,
Beş "Divan" yaradan ölkədə mənəm [5, s.478].

Təsadüfi deyil ki, şair əbədi ehtiyacına da diqqət yönəltmiş, "Mən" silsiləsindən "Mən" adlı digər heca vəznli şeirində şeir vəznlərini belə dəyərləndirmişdir:

Fikir arayıram, rəmz axtarıram,
Axtarış əbədi ehtiyacımdır.

Sərbəst vəzndə də şeir yazıram,
Heca zinətimdir, əruz tacımdır [5, s.516].

Qəhrəmanı çox acı görüb sitəm çəkən, tənha olub dərd-ələm içərisində yaşayan "O adam" şeiri sərbəst vəzndədir. Lakonikliyi ilə diqqət çəkən şeirin sonunda qəhrəmanın kimliyi barədə ilk misralarda etdiyimiz təxmin, yəni söhbətin şairdən getdiyi təsdiqlənir:

Bəs kimdir
gözü nəm,
sözü qəm
O adam?
Özüməm, özüməm
O adam, o adam… [5, s.553]

"I Kitab"ın şairin 2018-ci il avqustun 29-da Qubada yazdığı Azər oğluna qarşıda Qarabağı Ağbağ edəsi cəngin durduğunu bildirən "Rücu" ilə bitməsi də təsadüfi deyil, şairi düşündürən ən mühüm mövzunun vətən olduğunun bir daha isbatıdır.

**"Beşinci divan" – "II Kitab"**. "II Kitab" "Müxtəlif vəznli şeirlər"in davamı ilə başlayır. Bu kitaba ilk olaraq dostu şair Ramiz Qusarçaylıya ünvanladığı çoxsaylı şeirlərindən biri olan "Səni yaşatmağa tələsirəm mən" şeiri ilə başlaması da təsadüfi deyil. Şahin Fazil bu şeiri Ramiz Qusarçaylının "Onsuz da sevməyə gücümüz yoxdu, Məni öldürməyə tələsin bir az" [6, s.777] şeirinə cavab olaraq yazmış, dostuna, dostluğa dəyərini ifadə etmişdir:

Bu nəzər səmimi, bu göz səmimi,
Bu söz tərif deyil, bu söz səmimi:
Az şair görürəm indi sən kimi,
Səni yaşatmağa tələsirəm mən [6, s.779].

"Nələr çəkdiyimi özüm bilirəm" [6, s.921] deyən Ramiz Qusarçaylı şeirinə Şahin Fazilin yazdığı "Dərdçəkən" adlı şeirdən onların həyat yolu, mövqeyi, səmimiyyəti duyulur:

Mən də Ramiz kimi dərd daşıyanam,
Giley-şikayətsiz, mərd daşıyanam,
Gərək hamarlayam, sərt daşı yonam,
Nələr çəkdiyimi özüm bilirəm [6, s.921].

Ordunu zəfərə səsləyən Şahin Fazil Qarabağın abad olacağına da qəti şəkildə inanır və xalqın inam hissini daha da gücləndirir:

Ey şanlı diyar, ey Qarabağ, ey ana yurdum,
Hökmən düşəcəksən təzədən səhmana, yurdum! [6, s.932]

"Bizimdir Qarabağ, bizimdir!" şeiri 44 günlük müharibədən sonra qazandığımız zəfərin sevinci, müzəffər ordumuza təşəkkürün ifadəsidir:

Yan oldu zavaldan yurdumuz,
Qurtuldu işğaldan yurdumuz,
Yaşasın müzəffər ordumuz,
Bizimdir Qarabağ, bizimdir!!! [6, s.943]

"44 gün" adlı şeirdə "Qarabağ Azərbaycan, Azərbaycan vətəndir" [6, s.979] deyən şair 44 günün hər gününü qələbə, zəfər günü kimi dəyərləndirir:

44 günün hər günü
Qələbə, zəfər günü!!! [6, s.979]

Şair ermənilərin törətdiyi vəhşiliklərin, ağacları yandırması, bundan əlavə, bəşəri problem koronavirusun Yer kürəsinə gətirdiyi bəlanın da ağrısını içindən keçirərək şeirə gətirir.

"Qitələr" başlığı altında 28 qitə verildikdən sonra bir "Mürəbbe", ardınca "Sevgi və iztirab" adlı epik poemadan şeirlər, qitə, tərcibənd, xüsusən qəzəl və Şekspir yaradıcılığında olduğu kimi, 4+4+4+2=14 qaydası üzrə bəndlərə ayrılmış sonetlər verilmişdir ki, sonuncu ilk növbədə Şərq ədəbiyyatında Qərb janrının təqdimi baxımından diqqət çəkir:

Yarımın önündə başımı əydim,
Günlərim gah fərəh, gah da ah olur.
Mən hardan biləydim, nədən biləydim,
Sevgi iztiraba nişangah olur.

İztiraba alqış, sevgiyə alqış!
Hər biri taleyin əməli imiş...
İztirab sevginin üstündə naxış,
Sevgi iztirabın təməli imiş.

Sevgi və iztirab, vüsala həsrət,
Sevgi və iztirab qanaddır qoşa.
Sevgi və iztirab zəruri qismət,
Hər biri gərəkdir hər yaranışa.

Ya Rəbb, pərt eləmə Səni sevəni,
İztirab həzzindən ayırma məni [6, s.1096].

Nümunə məzmun, hər iki anlayış – sevgi və iztirabın şərhi, xüsusən sonda edilən arzu baxımından da diqqət çəkir. Digər sonetində *"Sonet yazardımmı darıxmasaydım, // Darıxmaq yazdırır sonet şeirimi"* [6, s.1098] söyləməklə sonet yazmasına, sonetlərin say çoxluğunun səbəbinə diqqət yönəldir:

İlham – azaltmadı payını şeirin,
Darıxmaq – çoxaltdı sayını şeirin [6, s.1098].

"Sonet"lərdə məhəbbət mövzusu, vətənə sevgi, Azərbaycanın birləşmə arzusu, şairin həyat yolunun şeirlərində əks olunmasının vurğulandığı da əksini tapır:

Özümə bənzəyir şeirlərim də,
Özümə oxşayır yazılarım da.

Başıma gələnlər şeirlərimdə,
Bütün əhvalatlar yazılarımda [6, s.1144].

Bu divanda "İntizarlı qəzəl", "Məyus qəzəl", "Eqo qəzəl", "Qırmızı qəzəl", "Zülmətli qəzəl", "Bəxtəvərlik soneti", "Nikbin sonet", "Bədbin sonet", "Vədli sonet", "Təklifli sonet", "Qəmgin sonet", "Pərişan sonet", "Məyus sonet", "Hicranlı sonet", "Qəzəbli sonet", "Acı sonet", "Yuxulu sonet", "Küllü sonet" və s. şeirlər verilmişdir ki, məzmunu ilə bərabər, adı ilə də diqqət çəkir. Eyni adla müxtəlif sonet və qəzəllərə də rast gəlinir.

"Təbriknamələr"də tanınmış insanlara, daha çox şair və alimlərə ünvanlanan, əsasən qəzəl janrında yazılan təbrik şeirləri, "Təəssüfnamələr"də isə şairin vəfat edən doğmaları, elm, sənət adamlarının itkisindən doğan duyğuları əks olunur. "Şikayətnamə" əməyinin dəyərləndirilmədiyinin nəticəsi, "Tərkibənd" həyat və sənət yoluna nəzirədir.

Yapon poeziyasının klassik janrları olan 3 sətir 17 hecadan ibarət hayku və 5 sətir 31 hecadan ibarət vakalar (tanka) Şahin Fazil yaradıcılığında, o cümlədən, bu divanda da əksini tapmışdır. Bir vakaya diqqət edək:

Unutdum səni.
Unutdum səsini, sözünü...
Yox, unutmadım,
Əgər unutsaydım,
Bu şeri yazmazdım [6, s.1238].

Göründüyü kimi, yaranan nümunə yaşantının təsiri, duyğuların səmimi şəkildə ifadəsinin nəticəsidir ki, burada da uğurlu alınmışdır. Deməк, gözəl sənət nümunələrinin yaranma səbəbi qəlbə təsir edən səmimi duyğuların yaddaşda yaşaması ilə sıx şəkildə bağlıdır.

"Təkbeytlər" lakonizmi ilə hikmətli sözlərə bənzəyir, fəlsəfi məzmunu, gerçəkliyi əks etdirməsi ilə də diqqət çəkir:

Gülüşlə göz yaşı durub yanaşı,
İnsan güləndə də axır göz yaşı [6, s.1245].

Şair "Dördlüklər"də də həyata və sənətə dair fikirlərini bölüşür, elə ilk nümunədə birinci misradan "Qəzəldə millilik mütləq! Təmiz yaz, saf əsər gəlsin!" [6, s.1246] söyləyərək qəzəldə milliliyi mütləq hesab edir. Son "Dördlük"də həyat yoluna nəzər salıb son misrada orijinal mübaliğədən – ürəyinin belinin əyilməsi ifadəsindən istifadə etmişdir:

Güman ki, əzəldən ulu Yaradan
Rahat yaşamağı mənə çox bilib –
Bəlkə də qəm çəkib dərd daşımaqdan
Mənim ürəyimin beli əyilib [6, s.1251].

"Səkkizliklər" adı altında üç şeir verilmişdir ki, birinci şeirdə "Mən şahin quşuyam, göyərçinsə sən" [6, s.1252] deyən şair şahin quşu ilə göyərçinin ayrı düşdüyünü, ikinci şeirdə sevgilisinin Xuda, Pərvərdigar olduğunu, üçüncü nümunədə isə həyat yoldaşı yanında olmasa da, onu unutmadığını, qızlarından razılığını bildirir, "Şahanə balamda şahanəliyim, Ülviyyə qızımda ülviyyətim var" [6, s.1252] söyləməklə xarakterinin onlarda əks olunduğunu vurğulayır.

"Bayatılar" yara, "Qarabağ bayatıları", "Quba bayatıları" silsiləsinə daxil bayatılar vətənə sevginin təcəssümüdür:

İnşallah ağ olacaq,
Əhvalı çağ olacaq,
Qarabağım yenə də
Xan Qarabağ olacaq! [6, s.1254]

"Xoryatlar" da şair düşüncəsinin gözəl və səmimi şəkildə ifadəsidir:

Çara da var,
Dərd varsa, çara da var.
Dərdi olmayan adam
Görəsən, harada var? [6, s.1262]

"Qoşmalar"da gözəllərin tərənnümü, məhəbbət, duyğuların səmimi şəkildə etirafı diqqət çəkir. "Şairi gözəllər öldürəcəklər" qoşması da bu qəbildəndir:

Hələ yaşamağım dünyada dəyər,
Biri "bəd" deyirsə, yüzü deyir "ər",
Şahini gözəllər öldürəcəklər,
Sevgi oxlarına hələ tuşam mən [6, s.1267].

"Rübailər" adı altında iki rübai verilmiş, daha sonra "Virusnamə"lərdə, 80 yaşına qədər ömür yoluna, səfərlərə nəzər salan şairin dünyanı bürüyən dövrün ciddi problemi koronavirusa – "COVID-19"a diqqət yönəltməsi isə bəşər üçün narahatlığının əksidir:

İndisə viruslar eyləyir hücum,
Adamlardan deyil, virusdan hədə.
Bütün bəşəriyyət təşvişə məhkum,
Qoca Yer kürəsi müharibədə [6, s.1273].

Şair bəşəri mübarizəyə səsləyir, özünü "evdə qal!" əmrinə əməl edərək virusla döyüşən döyüşçü, bəşəri bəla koronavirusla mübarizə aparanları cəngavər hesab edir. Bu mövzuda müxtəlif vəznli çoxsaylı şeirlər yazan şair "Bir daha bayatılar və xoryatlar" başlığı altında təqdim etdiyi üçüncü bayatıda bu mövzuda bayatı yazacağını təxmin etmədiyini bildirir, yazdığı bayatıda "COVID-19"u 2020-ci ilin matəmi adlandırır:

Əzizinəm, aləmi
Sarıb virus aləmi –
"COVID-19" oldu
20-nin matəmi [6, s.1335].

"Səfərnamə"lər onun yaradıcılığında, divanlarında, o cümlədən, bir qismi "Beşinci Divan"da təqdim edilmişdir ki, burada şairin həm ölkədaxili, həm də müxtəlif ölkələrə səfərləri ərəfəsində, xüsusən səfərlər zamanı qələmə aldığı şeirlər verilmişdir. Belə ki, "Beşinci Divan"da "Jeleznovodsk səfərnaməsi" şeirləri, "İyirmi dördüncü İran səfərnaməsi şeirləri silsiləsindən", "İyirmi beşinci İran səfərnaməsi

şeirləri silsiləsindən", "İyirmi altıncı İran səfərnaməsi şeirləri silsiləsindən", "İyirmi yeddinci İran səfərnaməsi şeirləri silsiləsindən", "İyirmi səkkizinci İran səfərnaməsi şeirləri silsiləsindən", "İyirmi doqquzuncu İran səfərnaməsi şeirləri silsiləsindən", "Otuzuncu İran səfərnaməsi şeirləri silsiləsindən", "Otuz birinci İran səfərnaməsi şeirləri silsiləsindən", "Otuz ikinci İran səfərnaməsi şeirləri silsiləsindən", "Polşa səfərnaməsi şeirləri silsiləsindən", "Altıncı Türkiyə səfərnaməsi şeirləri silsiləsindən", "Yeddinci Türkiyə səfərnaməsi şeirləri silsiləsindən", "Səkkizinci Türkiyə səfərnaməsi şeirləri silsiləsindən", "Doqquzuncu Türkiyə səfərnaməsi şeirləri silsiləsindən", "Kipr səfərnaməsi şeirləri silsiləsindən", "Lənkəran səfərnaməsi silsiləsindən", "Şəki səfərnaməsi şeirləri silsiləsindən" şeirlər təqdim edilmişdir. "Səfərnamə"lər şairin həyat və yaradıcılıq yolu, səfər duyğuları və digər mühim məsələlərlə diqqət çəkir ki, onlar növbəti tədqiqatlarımızın mövzusuna çevriləcəkdir.

"Xatimə" ilk növbədə Şahin Fazilin Tanrıya təşəkkürüdür: "Salam olsun Sənə, İlahi! "Beşinci Divan"ım, nəhayət ki, bitdi, xitama yetdi və hazırda bu kitaba xitabən "Xitamə" yazıram. Salam olsun Sənə ki, məni beş "Divan" müəllifi etdin və bu zəhmətli işdə imdada yetdin. Əslində bütün "Divan"larımın müəllifi mən yox, Sən Özünsən. Sən deməsəydin, mən yazmazdım. Sənsən mənim ilham pərim!" [6, s.1481].

**Nəticə.** Beləliklə, 20 il əvvəl çap olunan "Əllərini ver mənə" adlı kitabda verilən, ilk və son misrası "Mənə yazdıran var şeirlərimi" şeirindən doğan "kimdir yazdıran" sualının cavabının da "Xatimə"də verildiyi müəyyənləşir. Rəbbinə professor Qəzənfər Kazımovun adlandırdığı "Divanlar xəmsə"sini tamamlamaqda ona möhlət verdiyi üçün təşəkkürünü bildirən Şahin Fazil özünün divan yaradıcılığına tanınmış elm adamlarının verdiyi qiymətə diqqət yönəltməklə yanaşı, divana dair öz mövqeyini də bildirmişdir. Klassik divanların, demək olar ki, hər birinin əruz vəzninin müxtəlif bəhrlərində qələmə alındığını, özünün isə müasir şair kimi həmin ənənə tərzindən kənara çıxıb divanlarının hamısına əruz vəznindən başqa heca və sərbəst vəznli şeirlər də daxil etdiyini, müasir divan yaratmaq şərəfinə yetdiyini qeyd etmişdir.

Beş divan yazmaqla niyyət və məqsədinə çatdığını bildirən, "Xatimə"ni "Bilməzlik" adlı şeirlə bitirən, qarşıda hələ çap olunmamış bir neçə kitabı olduğunu vurğulayan şairi "qədri bilinəcəkmi" sualı düşündürür. Zəngin yaradıcılığa malik və daim fəaliyyətdə olan sənətkarın "Beşinci Divan"ının sonunda verilən qəsidə onun divan yaradıcılığının konspekti, son beyt isə mövzuya dair aksiomdur desək, yanılmarıq:

Bugünün "Xəmsə"sini cürət edib mən yazdım!
Yazan olmuşmu bu Şahin təhəri "Beş Divan?" [6, s.1501]

Beləliklə, bütün söylənilənlərdən bu qənaətə gəlirik ki, tədqiqata cəlb etdiyimiz "Beşinci Divan" müasir Azərbaycan ədəbiyyatında strukturu, həcmi, zəngin tematika, ideya istiqaməti, klassik və çağdaş dövrün poeziyasının hər üç vəzndə, müxtəlif janrlarda gözəl təqdimi baxımından uğurlu hadisədir.

Əlaqə
E-mail: **dadashova.ilaha@mail.ru**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Cəfərov, M., Ramizoğlu, S. Ağla və qəlbə işıq saçan sözlər, Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2009. – 568 s.
2. Fazil, Şahin. İkinci Divan. Bakı: "Elnur-P", – 2005. – 1268 s.
3. Fazil, Şahin. Üçüncü Divan. Bakı: "Təknur", – 2008. – 1382 s.
4. Fazil, Şahin. Dördüncü Divan. Bakı: "Elm və təhsil", – 2014. – 872 s.
5. Fazil, Şahin. Beşinci Divan. I Kitab, Bakı, – 2022. – 776 s.
6. Fazil, Şahin. Beşinci Divan. II Kitab, Bakı, – 2022, – 777-1552 s.

**Məqaləyə istinad:** İlahə Dadaşova. Şahin Fazilin "Divanlar" silsiləsində "Beşinci divan": Strukturu, tematikası və ideya istiqamətləri. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 1 (24), 2023. səh.39-49.
Doİ: 10.30546/2702-0034.1.24.2023.39

***Ilaha DADASHOVA***

## STRUCTURE, THEME AND IDEA DIRECTIONS OF THE "FIFTH DIVAN" IN THE SERIES OF "DIVANS" BY SHAHIN FAZIL

***S u m m a r y***

In the article, Shahin Fazil's "Fifth Divan", a doctor of historical sciences, professor, who signed an innovation by creating "Khamsa" from "Divans", was involved in the research. The poet who stated that "Khamsa Divans" were not created in Azerbaijan and in the world, also signed a first in this field. In terms of the number, size, structure, theme, weight and variety of genres, the five large Divans, which I call the "pentology of Divans", are a novelty in our literature. First of all, let us note that the large-scale "Fifth Divan" differs from the four large-scale divans published in 1996, 2005, 2008, and 2014 by a number of features. One of them is that it consists of two big parts called "Book I" and "Book II". Although "The Fifth Divan", like others, begins with "Dibach", unlike them, after "Khatima" it ends with "Continuation of Words", written by Doctor of Philological Sciences, Professor Ismail Mammadli. The "Fifth Divan", which is rich in subject matter, is the poet's thanks to God, his love for the motherland, mother, woman, and humanity. He keeps in himself "yesterday" and "today". There is a strong cry of sadness and triumph arising from the occupation of Karabakh. Especially with the liberation of Karabakh, the content of the topic has changed. Grief and pain have been replaced by the determination to fight, and finally the joy of victory. The poet considered it important to preserve the purity of our native language while writing poems in all three volumes, in various genres, and proved once again that the native language has a rich vocabulary and his great love for it. In addition, he also included Sonnets, Haiku and Waka (tanka) in Divan.

Thus, from all that has been said, we come to the conclusion that the "Fifth Divan" we have involved in the research is a successful event in modern Azerbaijani literature in terms of its structure, volume, rich themes, idea direction, beautiful presentation of classical and contemporary poetry in all three volumes, in various genres.

*Илаха ДАДАШОВА*

## СТРУКТУРА, ТЕМА И НАПРАВЛЕНИЯ ИДЕЙ «ПЯТОГО ДИВАНА» В СЕРИИ «ДИВАНЫ» ШАХИНА ФАЗИЛЯ

***Р е з ю м е***

В статье к исследованию привлечен «Пятый Диван» доктора исторических наук, профессора Шахина Фазиля, который подписал нововведение, создав из «Диванов» «Хемсе». Поэт, заявивший, что «Хемсе» из диванов не создавалась ни в Азербайджане, ни в мире, также стал создателем новшества в этой области. По количеству, размеру, структуре, теме, стихосложению и разнообразию жанров пять больших "Диван"ов, которые названы «пентологией диванов», являются новинкой в нашей литературе. Прежде всего отметим, что крупный «Пятый Диван» отличается от четырех крупных диванов, изданных в 1996, 2005, 2008 и 2014 годах, рядом особенностей. Одной из них является то, что он состоит не из одной, а из двух больших частей, называемых «Книга I» и «Книга II». Хотя «Пятый Диван», как и другие, начинается с «Дибача», в отличие от них, после «Хатимы» он заканчивается «Послесловием», написанным доктором филологических наук, профессором Исмаилом Мамедли. «Диван» – это отражение благодарности поэта Аллаху, его любви к Родине, матери, женщине, а также призыва к человечеству. Диван возрождает прошлое и настоящее. Сильна печаль, вызванная оккупацией Карабаха, силен крик о победе. В частности, с освобождением Карабаха изменилось содержание темы. Горе и боль сменились решимостью бороться и, наконец, радостью победы. Поэт считал важным сохранить чистоту родного языка при написании стихов во всех трех стихосложениях, в различных жанрах, еще раз доказав, что родной язык имеет богатый словарный запас, а также свою большую любовь к нему. Кроме того, он также включил сонеты Хайку и Вака (танка) в «Диван».

Таким образом, из всего сказанного мы приходим к выводу, что привлеченный нами к исследованию «Пятый Диван» является удачным событием в современной азербайджанской литературе по своей структуре, объему, богатой тематике, идейной направленности, прекрасной подаче классической и современной поэзии во всех трех стихосложениях в разных жанрах.